# DÜNYA

№17 APREL 2017



Xəzər Universiteti
Dünya Məktəbi
Aylıq dərgi

# GƏLİN DƏYİŞƏN VƏ İNKİŞAF EDƏN DÜNYAYA QOVUŞAQ!

## SİZ DƏ BİZİMLƏ TEZ VƏ HƏVƏSLƏ DİLLƏRİ ÖYRƏNİN.

**DÜNYA TƏHSİL MƏRKƏZİ SİZƏ TƏKLİF EDİR**

- ABİTURİYENT HAZIRLIĞI (IX, X, XI)
- İBTİDAİ VƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNƏ FƏNLƏR ÜZRƏ DƏSTƏK

**MƏNTİQ**

**IELTS**

**SAT**

- BEYNƏLXALQ TƏLİM STANDARTLARINA ƏSASLANAN DİL KURSLARI
- MƏKTƏBLİLƏR ÜÇÜN BEYNƏLXALQ TƏDRİS PROQRAMLARINA HAZIRLIQ (İBTİDAİ, ORTA MƏKTƏB VƏ DİPLOM PROQRAMLARI ÜZRƏ)
- MƏKTƏBƏQƏDƏR KEYFİYYƏTLİ TƏHSİL



Ünvan:
Əcəmi Naxçıvani 9.
http:// dunyaschool.az
E-mail:info@dunyaschool.az
Tel : (+994 12) 563 59 40 /47/48
Mob: (+994 70) 844 08 88

# BU NÖMRƏDƏ



5



6-11



12-13



14-15



18-19



23



38-39


| | |
|---|---|
| 4 | DÜNYA Məktəbinin saytı |
| 5 | İmtahanqabağı stress və onun aradan qaldırılması |
| 6-11 | Sumqayıt məktəblilərinin mədəniyyət festivalı |
| 12-13 | DÜNYA Məktəbi- zəngin təcrübə meydanı |
| 14-15 | 5th ANNUAL IB CONFERENCE |
| 17 | The extended essay writing |
| 18-19 | Четыре мгновения весны |
| 20-21 | МАГИЧЕСКИЙ КУБ |
| 22-23 | Məktəb xəbərləri |
| 24-29 | TƏQVİM |
| 30-31 | DOSTUN ÜÇÜN YARIŞ |
| 33 | Bağça və məktəbəqədər hazırlığın saytı |
| 34-35 | Balazooya səyahət |
| 36-37 | Successful transition from kindergarten to school |
| 38-39 | Я учу русский |



TƏSİSÇİ: XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ





JURNALIN ÜZ QABIĞINDA
AYAN VƏ FƏRHANƏ RƏHİMOVA
PYP


Baş redaktor NAİLƏXANIM İSAYEVA

Baş redaktor müavini AFAQ QƏMBƏROVA

Rəssam MİR RAFİQ ƏBDÜLRƏHİMOV

Dizayner ÜLKƏR KƏRİMOVA

Fotoqraf NURANƏ HƏSƏNOVA, NİGAR FƏRMANOVA, HÜSEYN QƏHRƏMANLI

Redaksiya heyəti MƏRUFƏ MƏDƏTLİ, LEYLA CƏBRAYILOVA, RƏNA HƏSƏNOVA

# DÜNYA MƏKTƏBİNİN SAYTI




XƏZƏR UNİVERSİTETİ




BEYNƏLXALQ BAKALAVR-IB PROQRAMI



DÜNYA BAĞÇASI VƏ MƏKTƏBQƏDƏR HAZIRLIQ



www.dunyaschool.az



# MÖVZU : İMTAHANQABAĞI STRESS VƏ ONUN ARADAN QALDIRILMASI

ELNUR RÜSTƏMOV

PSİXOLOGİYA VƏ KONSULTASİYA MƏRKƏZİNİN RƏHBƏRİ, PSİXOLOQ

Bir çox şagirdlərin fikrinə görə, imtahanın nəticəsi ona sərf olunan zəhmətdən asılıdır. İmtahan heç də adi qaydada biliklərin yoxlanılması deyil. İmtahan nəticələri bilinməyən, stress faktoru altında biliklərin yoxlanılmasıdır. İmtahan insanı stress vəziyyətinə salır və gərgin edir. Həddindən artıq gərgin işləmək isə sağlamlığın ağırlaşmasına və əsəb sisteminin pozulmasına səbəb ola bilər. Əksər valideynlər uşaqlarını stresdən qorumaq üçün onların imtahan həyəcanını yaşamamasını istəyirlər. Lakin stressə düşən uşağı həyəcandan qorumaq, məsuliyyəti onun üzərindən götürmək, onun əvəzinə qərar vermək, uşağı çətinlikdən keçmək kimi təcrübədən məhrum etmək onu gələcəkdə baş verə biləcək istənilən hadisənin qarşısında aciz qoymaq deməkdir.

Buna görə də imtahanın uğurlu olması üçün imtahana hazırlığın düzgün aparılması çox vacibdir.

Səbəbləri nəzərə alaraq məktəb Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri, psixoloq Elnur Rüstəmovla şagirdlər arasında görüş keçirdİ. Əsas mövzusu imtahanqabağı stress və onun aradan qaldırılması olan görüşdə psixoloq şagirdlərlə birlikdə bu barədə xüsusi söhbət edərək onlarda özlərinə belə streslərdən uzaq olmaq və həyəcansız, uğurla imtahan vermək xüsusiyyətlərini aşılamaq yollarını müzakirə etdilər.



SUMQAYIT ŞƏHƏR İCRA HAKİMİYYƏTİ

SUMQAYIT REGİONAL MƏDƏNİYYƏT VƏ TURİZM İDARƏSİ

SUMQAYIT ŞƏHƏR TƏHSİL ŞÖBƏSİ

SUMQAYIT MƏKTƏBLİLƏRİNİN MƏDƏNİYYƏT

# FESTİVALI

SUMQAYIT DÜNYA MƏKTƏBİ

SUMQAYIT 2017

# FİNAL MƏRHƏLƏSİ













**Sumqayıt Dövlət Dram Teatrında Sumqayıt Şəhər İcra Hakimiyyətinin, Sumqayıt Regional Mədəniyyət İdarəsinin, Sumqayıt Şəhər Təhsil İdarəsinin və Xəzər Universitesi Sumqayıt "Dünya" məktəbinin təşkilatçılığı ilə Sumqayıt Məktəblilərinin Mədəniyyət Festivalının** **Qala konserti** **keçirildi.**

**11 aprel 2017**









# QALİBLƏRİN MÜKAFATLANDIRILMASI



## SUMQAYIT DÖVLƏT DRAM TEATRI



## MÜASİR VƏ DÜNYA RƏQSLƏRİ   BƏDİİ QİRAƏT













SAZ GİTARA SKRİPKA TAR NAĞARA VOKAL



Qala konsertdə Xəzər Universitetinin təsisçisi,Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı  və Sumqayıt İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov  salona toplaşanları salamlayaraq bildirdilər ki, Sumqayıt Məktəblilərinin Mədəniyyət Festivalı sumqayıtlıların həyatında mühüm hadisədir. Xeyli müddət festivalda qalib gəlmək uğrunda mübarizə aparan Sumqayıt üzrə 46 məktəbin şagirdləri Dram Teatrında  MÜASİR VƏ DÜNYA RƏQSLƏRİ, BƏDİİ QİRAƏT, XANƏNDƏLİK SƏNƏTİ, SAZ – GİTARA  -  SKRİPKA - TAR – NAĞARA İFAÇILIĞI, VOKAL, ŞAHMAT, RƏSM  nominasiyaları üzrə məharətlərini nümayiş etdirdilər. “Dünya” məktəbinin təsisçisi Nailəxanım İsayeva, Xəzər Universitetinin İctimai Əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürov, Sumqayıt Təhsil Şöbəsinin müdiri Nizami Namazov, “Dünya” məktəbinin müdiri Mərufə Mədətli və Sumqayıt “Dünya” məktəbinin müdiri Münəvvər Bayramova qaliblərə sertifikatlarını və hədiyyələrini təqdim etdilər.
















# DÜNYA MƏKTƏBİ-ZƏNGİN TƏCRÜBƏ MEYDANI

Cəmiyyətimizdə yüksək mövqe qazanan tanınmış elm, mədəniyyət, dövlət xadimləri arasında Xəzər Universitetinin məzunları da az deyil. Xəzər Universitetinin təhsil fakültəsində əsas tədris prinsipi tələbələrin aldığı nəzəri biliklərin praktik təcrübələrlə möhkəmləndirilməsinə söykənir. Bu da universitet məzunlarının əmək fəaliyyətinə başladıqları zaman iş yerinə tez adaptasiya olunmalarına, gənc pedaqoq kimi özlərini şagirdlərin qarşısında daha inamlı hiss etmələrinə, nəticədə az vaxt ərzində hərtərəfli mütəxəssis kimi formalaşmalarına gözəl zəmin yaradır. Xəzər Universiteti nəzdində fəaliyyət göstərən “Dünya” məktəbi bu baxımdan sabahın müəllimləri üçün zəngin təcrübə meydanıdır.

Dünya məktəbində Təhsil nazirliyinin qəbul etdiyi qaydalara uyğun olaraq təcrübəçi müəllimlərlə hərtərəfli və fərdi iş aparılmaqla yanaşı, onlara bizim təhsil ocağının standartları və fəlsəfəsi, pedoqoji kadrlara olan yüksək tələbləri də aşılanır. Belə ki, Xəzər Universitetinin Təhsil fakültəsinin tələbələrinin məktəbimizdə keçdikləri passiv və aktiv pedaqoji təcrübə bu gənclərin müəllim kimi yetişməsində müstəsna əhəmiyyət daşıyır. Sonuncu kurs tələbələri hər semestr 12 həftə olmaqla payız semestrində passiv, yaz semestrində isə aktiv pedaqoji təcrübə almaqla bərabər məktəbin fəaliyyəti ilə yaxından tanış olur,elmi-pedaqoji proseslərin, mədəni kütləvi tədbirlərin, bütünlükdə məktəb həyatının fəal iştirakçısına çevrilirlər.



Passiv təcrübə zamanı tələbələr məktəbdə və bilavasitə sinflərdə dərslər zamanı aparılan iş prosesini müşahidə edir, 4 il ərzində universitetdə öyrəndikləri pedaqoji bilikləri məktəb mühitində daha da möhkəmləndirirlər. Aktiv pedaqoji təcrübə isə artıq tələbələrdə hər bir müəllimə gərəkli olan mühüm keyfiyyətlərin formalaşması üçün nəzərdə tutulub. Məktəb rəhbərliyinin universitet təcrübə rəhbərləri ilə faydalı əməkdaşlığı sayəsində hər bir tələbənin potensial imkanları müəyyən edilir, təcrübəçilərin qarşılaşdığı çətinliklərin aradan qaldırılması üçün birgə addımlar atılır..




# DÜNYA MƏKTƏBİ TƏHSİL VERMƏKLƏ YANAŞI GƏNC MƏZUNLARIN PEDAQOQ, HƏRTƏRƏFLİ MÜTƏXƏSSİS KİMİ FORMALAŞMA - LARINA GÖZƏL ZƏMİN YARADIR.





Məktəbimizdə pedoqoji təcrübə zamanı hər tələbəyə fərdi yanaşma metodu tətbiq edilir, bu istiqamətdə metodist və mentor müəllimlərin fəaliyyəti dəqiq şəkildə kordinasiya olunur.Artıq uzun illərdir ki, pedaqoji təcrübələr zamanı mentor müəllimlərimizin metodist müəllimlərlə əməkdaşlığı formalaşıb.Hər iki tərəf gözəl anlayır ki, belə səmərəli işbirliyi təcrübəçilərin uğurlu nəticəsi üçün mühüm amildir.

Mentor müəllimlərimiz təcrübəçiləri 2-3 nəfərlik kiçik qruplar halında dərs prosesinə cəlb edir, onların siniflərdə fəal şəkildə müşahidə aparmalarına şərait yaradırlar. Müəllimlərimizin rəhbərliyi altında tələbələr illik və cari dərs planları ilə yaxından tanış olur və müəyyən edilmiş vaxtlarda təcrübəçilərin bir neçə saat dərs keçməsinə şərait yaradılır. Təcrübəli mentor müəllimlərin nəzarəti ilə keçirilən bu dərslər gənc kadrlar üçün praktik baxımdan böyük əhəmiyyətə malikdir. Bu zaman hər bir tələbənin dərs prosesində qarşılaşdığı çətinliklər, yol verdiyi səhvlər məhz mentor müəllim tərəfindən müəyyən edilir. Eyni zamanda məktəbimizin müəllimləri təcrübəçilərin tədris prosesinin digər formalarda da aktiv iştirakına da nail olur. Məsələn, mentor müəllimlər fərdi yanaşmaya ehtiyacı olan şagirdlərlə iş zamanı təcrübəçilərin dəstəyindən geniş şəkildə istifadə edirlər. Tələbələrin aktiv pedaqoji təcrübə zamanı əldə etdikləri nəticələr xüsusi qiymətləndirmə meyarlarına əsasən müəyyən olunur. Onlar üçün olduqca həlledici sayılan bu məqamda isə məktəb rəhbərliyi və mentor müəllimlərimiz obyektiv yanaşma mövqeyi tuturlar. Biz sabahın müəllimləri olacaq gənclərimizin "Dünya" məktəbindəki fəaliyyətinə dəyər verir, onların cəmiyyətimiz üçün yetkin bir şəxsiyyət kimi formalaşmasına çalışırıq.

*Aləmzar Cabbarova*
*Tədris İşləri üzrə Direktor müavini*



# 5$^{TH}$ ANNUAL CONFERENCE IB









The main objective of the conference was to highlight the student learning and to discuss the ways to enhance the student learning considering the importance of the role of teachers and school administration. Brad Philpot, Director of Philpot Education, a licensed provider of professional development workshops for teachers of the International Baccalaureate Diploma Programme (IBDP), the author of some IBDP books and prof. Hamlet Isakhanli , the founder of Khazar University and co- founder of Dunya IB School were the keynote speakers of the conference.







# LEARNING TOGETHER, STRONGER TOGETHER

## 29-30 APRIL 2017 Dunya School





The talk of the speakers focused on the challenges and importance of international education. Teachers from a number of international schools participated in the conference as it was a good opportunity for many English Language teachers to build their networks while exchanging knowledge and experiences.





He is sure that the Azerbaijani app designed by him and his friends such as Elgiz Abbasov and Elnur Seyidov will guide the tourists visiting Azerbaijan .It is easy to get information about the weather, clothing, shopping and places of interest in Azerbaijan . The Chemistry app which also created by Samir Aliyev offers assistance to the IBDP students to prepare for their examinations.

# SAMIR ALIYEV

# “THE EXTENDED ESSAY WRITING” WORKSHOP



## BRAD PHILPOT

The Extended Essay workshop for IBDP teachers was delivered on April 30, 2017. The workshop was led by Brad Philpot, Director of Philpot Education, a licensed provider of professional development workshops for teachers of the International Baccalaureate Diploma Programme (IBDP), who has worked as IBDP Extended Essay examiner for many years.

It was a fruitful workshop which aimed to enhance the participants' understanding of the EE assessment in IBDP. The teachers discussed and analyzed the content of the EE writing process to develop their expertise in supervising the students.





# ЧЕТЫРЕ МГНОВЕНИЯ ВЕСНЫ





**А сколько детских пожеланий собрал в себе огромный белый шар отправленный детьми в полёт!**



Праздничный концерт «Четыре мгновения весны» собрал много гостей, зрителей в тёплых стенах нашей школы. Дети читали стихи своим учителям – предметникам, исполняли песни и сценки, посвящённые школьной жизни.



Праздничная программа была наполнена разными танцами.
Вместе с детьми выступали и их родители. Как приятно видеть такой творческий союз: вся семья на сцене!
А сколько детских пожеланий собрал в себе огромный белый шар, отправленный детьми в полёт!





Ребята и Гусния ханум, которая вложила в эти юные сердца столько любви, тепла и частичку своей жизни.
Пусть всегда вам сопутствует тёплый ветер удачи в вашем счастливом полёте!







В АКАДЕМИИ БЫЛ СОЗДАН МЕЖДУНАРОДНЫЙ ФОНД РУБИКА ДЛЯ ПОДДЕРЖКИ ОСОБЕННО ТАЛАНТЛИВЫХ МОЛОДЫХ ИЗОБРЕТАТЕЛЕЙ...

# ЭРНО РУБИК

Родился в Будапеште во время Второй мировой войны. Его отец был авиаинженером, мать-поэтесса. В 1967 году окончил инженерный факультет Будапештского университета технологии и экономики по специальности инженер-строитель, продолжил обучение в аспирантуре на скульптора и дизайнера интерьера.
В 1971 — 1975 годах работал архитектором, затем снова вернулся в академию и получил звание доцента.
В начале 1980-х стал редактором журнала игр и головоломок . В 1983 году основал собственную студию, которая занималась разработкой головоломок. В 1987 году получил звание профессора, в 1990 совместно с Яношем Гинстлером основал венгерскую техническую академию и был её президентом.
В академии был создан международный фонд Рубика для поддержки особенно талантливых молодых изобретателей.

**Эрнё Рубик создал механическую головоломку и дал ей название «магический куб».**

**Вряд ли тогда ученый задумывался о том, что эта игрушка покорит мир, став самой продаваемой головоломкой в истории человечества.**
**Сейчас, спустя более чем 40 лет со дня изобретения, по всему миру проводятся соревнования по спидкубингу (сборке кубика Рубика на время). Ученики школы на уроках логики учатся собирать эту головоломку.**
**Для многих ребят это занятие стало увлекательным и любимым.**

















Vətənə bağlılıq onu sevmək, qorumaq və inkişaf etdirməkdir. Çünki nə vətənsiz bir millət, nə də millətsiz bir vətən ola bilər. Vətən əldən gedərsə, o millətin hər cür milli-mənəvi dəyərləri də yox olub gedər. Vətəni qorumaq hissi isə uşaqlıqdan aşılanmalı, öyrədilməlidir. Dünya məktəbinin müəllimləri mütamadi olaraq siniflər arasında vətənpərvər ruhlu tədbirlər hazırlayırlar. Bu dəfəki tədbir aprel şəhidlərinin ildönümünə həsr olunmuşdu. Böyük həvəslə hazırlanan tədbirə şagirdlərin valideynləri də dəvət olunmuşdu.











# Bir şeir istəyirəm...

ADİLƏ NƏZƏR

FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU, 8 KİTAB – 6 ŞEİRLƏR KİTABI, "AZƏRBAYCAN DİLİNDƏ FƏLSƏFƏ TERMİNLƏRİNİN İZAHLI LÜĞƏTİ", 40-A QƏDƏR ELMİ MƏQALƏ VƏ TEZİSİN MÜƏLLİFİ, AZƏRBAYCAN VƏ İRAQ YAZIÇILAR BİRLİYİNİN ÜZVÜ










Görüşün 23 aprel - bütün dünyada Ümumdünya Kitab və Müəllif Hüquqları Günü kimi qeyd olunduğu bir vaxtda təşkil edilməsi təsadüf deyildi. Tədbirdə məktəbin Dil və Ədəbiyyat müəllimi Güntəkin Binnətova Adilə xanımın yaradıcılığı haqqında şagirdlərə ətraflı məlumat verdi.Məktəblilər şairin şeirlərini söylədilər və onun yaradıcılığı əsasında hazırladıqları sualların cavabını Adilə xanımın özündən eşitdilər.Şagirdlərimiz Aytac Şirinova, Aişə Baxşıyeva, Arzu Təbrizi özlərinin kövrək yaradıcılıqlarından bəhs edərək şeirləri söylədilər və Adilə xanımın tövsiyələrini dinlədilər. Daha sonra müəllimlərimiz Güntəkin Binnətova və Mədinə Karahan şairənin şeirlərini səsləndirdilər.

*Mədinə Karahan*
*Kitabxana rəhbəri*





# Сергей Тимофеевич Аксаков

1791-1859

Сергей Тимофеевич Аксаков известный русский писатель происходил из старейшего дворянского рода. Его родословная уходит своими корнями к варягам, пришедшим на Русь из Скандинавии.

Он был одаренным и смышленым ребенком. Он впитывал в себя не только строгие правила, присущие отпрыску старинного дворянского рода, происходившего от самого норвежского короля, но и атмосферу патриархальной русской усадьбы с тяжелым крестьянским трудом и душевным, рассудительно спокойным, добродушным миром дворни.

Для любознательного мальчика всегда было интересно послушать живую, яркую речь с прибаутками и присказками. Недаром его произведения от сказок до автобиографических хроник полны народными песнями, сказаниями, играми и забавами. Кроме того, у него с раннего детства была глубокая и проникновенная страсть к русской природе. Это чувство любви и понимания того живого мира, который окружает нашу жизнь, формирует в людях совершенно особое чувство умиротворения и пониманИЯ сущности человеческой жизни.

**НЕДАРОМ ЕГО ПРОИЗВЕДЕНИЯ ОТ СКАЗОК ДО АВТОБИОГРАФИЧЕСКИХ ХРОНИК ПОЛНЫ НАРОДНЫМИ ПЕСНЯМИ, СКАЗАНИЯМИ, ИГРАМИ И ЗАБАВАМИ.**

На сороковом году был напечатан его очерк "Буран. После смерти отца в 1839 году Аксаков получил хорошее наследство, ушел с государственной службы и полностью посвятил себя семье и литературе. В семье росло 10 детей, к воспитанию которых относились очень серьезно.

Писатель с большой образованностью и большим умом, он всегда обладал особой душевностью, чуткостью, и это позволяло ему быть нравственным авторитетом не только для собственных детей.

Охота, рыбная ловля, театр - вот тот мир, в который был целиком погружен Аксаков.

Аксаков сознательно ограничивал себя. Написанные на склоне лет воспоминания должны были явиться летописью его личной жизни и свидетельствовать лишь о том, что имело самое непосредственное отношение к биографии автора. Но он не разрешал себе говорить ни о чем, что выходило за пределы его личного опыта.

Аксаков занимает особое место в истории русской культуры. Он был центром притяжения для большого круга писателей, учёных и театральных деятелей.

**В первых своих книгах: «Записки об уженье» , «Записки ружейного охотника Оренбургской губернии» , «Рассказы и воспоминания охотника о разных охотах» , Аксаков проявил себя как писатель, владеющий богатствами народного слова и тонкой наблюдательностью, как проникновенный поэт русской природы.**





# NƏCƏFBƏY VƏZİROV

1854-1926

**MÜƏLLİMLİK, AKTYORLUQ, TƏRCÜMƏÇİLİK, QƏZETÇİLİK, XÜSUSƏN DƏ YAZIÇILIQ NƏCƏFBƏYİN ƏLİNDƏ XALQA DAHA YAXINDAN XİDMƏT ETMƏK YOLLARI, VASİTƏLƏRİ OLMUŞDUR.**



Qarabağda, səfalı Şuşa şəhərində, müflisləşmiş bəy ailəsində anadan olmuşdur. Vaxtından əvvəl xəstələnərək əmək qabiliyyətini itirən atası ailəsinji dolandırmağa çətinlik çəkdiyi üçün, kasıb ailə onun arvadı Mina xanımın cüzi qazancına möhtac olmuşdu. Onların imkanlı qohumları olsa da, heç biri bu ailəyə kömək əli uzatmamışdı. Elə bu səbəbə görə də Nəcəfbəy oxumağa çox gec, 12 yaşında olarkən başlamışdı.

İlk təhsilini mollaxanada almış Nəcəfbəy, 1866 –cı ildə, üç ayı ərzində Quranı həm oxumağı, həm də yazmağı öyrənmişdi.

Realist Azərbaycan dramaturgiyasının fəal davamçısı, ilhamlı yaradıcısı olan Nəcəfbəy Vəzirov ədəbiyyat və mədəniyyət tariximizdə görkəmli ictimai xadimlər, maarifpərvərlər nəslinə mənsubdur. XIX yüzilin ikinci yarısında Azərbaycan realist ədəbiyyatının, dramaturgiyasının, publisistikanın qarşısında duran tarixi vəzifələri həll etmək N.vəzirov kimi xalq həyatına bağlı sənətkarların öhdəsinə düşmüşdü. Özünü Mirzə Fətəli Axundovun (1812-1878) tələbəsi hesab edən N.Vəzirov bu vəzifələri layiqincə yerinə yetirmək üçün səmərəli əmək sərf etmişdir. O, ədəbiyyatımızda realizm ənənələrini davam etdirmək üçün səmərəli əmək sərf etmişdir.

O, ədəbiyyatımızda realizm ənənələrini davam etdirərək, mədəniyyətimizin dramatik sənət sahəsində yeni nailiyyətlər qazanmasında, Azərbaycan mədəniyyətinin yeni tələblər baxımından formalaşmasında böyük işlər görmüşdür.

Azərbaycan dramaturgiyası tarixində ilk dəfə faciə janrına müraciət edərək, gələcəyə inamla baxan Fəxrəddin bəy və Səadət xanım kimi həyata bağlı, maarifpərvər surətləri yaradan Vəzirov milli dramaturgiyamıza yeniliklər gətirmişdir. 50 ildən artıq bir zaman kəsiyini əhatə edən səmərəli ədəbi fəaliyyəti dövründə o, realist sənət üslubun əsasında Azərbaycan həyatı üçün vacib olan, günün mühüm tələblərinə cavab verən mövzulardan səhnə əsərləri yaratmışdır. Müəllimlik, aktyorluq, tərcüməçilik, qəzetçilik, xüsusən də yazıçılıq Nəcəfbəyin əlində xalqa daha yaxından xidmət etmək yolları, vasitələri olmuşdur.





SAY HELLO TO MY LITTLE FRIEND," SCOWLS AL PACINO IN SCARFACE, REFERRING TO HIS MACHINE GUN. THE LINE IS VINTAGE PACINO ON SCREEN, THAT IS.

"THE CHARACTERS," ADMITS THE LEGENDARY TOUGH GUY."

"THINGS I'VE ALWAYS WANTED TO SAY, AND THAT WAS VERY LIBERATING FOR ME."

Alfredo James Pacino was born on April 25, 1940, to Salvatore Pacino and Rose. His parents split up when he was two years old, and Al and his mum moved in with his grandparents in the South Bronx, a tough urban borough of New York City. Intelligent, but never motivated by school work, he found solace and fulfilment in acting.

# ALFREDO JAMES PACINO

"It started when I was very young. I mean, really young," he says. "I wasn't let out much. I was kept in. And while I was home I found myself repeating the roles from the movies I saw with my mother. Sometimes she'd take me to the movies when she came home from work. That was our date," he said. The two enjoyed a very close relationship, and Pacino was devastated by her death in 1962 after a long illness.

Aged 16 Pacino won a place at the prestigious High School for Performing Arts in Manhattan, but dropped out after just one year. He moved to Greenwich Village, did the off-off-Broadway thing and by 26 was accepted into Lee Strasberg's famed Actors Studio, a stomping ground for De Niro, Keitel, and other assorted legends. Pacino struggled for a while, but soon scored a Tony Award for a Broadway production of Does **A Tiger Wear A Necktie?** He thrived on stage "my first love," as he describes it and only came to Hollywood in his 30s. He won rave reviews for his screen debut as a heroin-addicted criminal in **The Panic In Needle Park**, but it was **The Godfather** that truly ignited his career. Ironically, the studio was dead set against hiring Pacino for the film, hoping to cast a "name" in the role.

Pacino, who is of Sicilian descent, went on to star in a string of acclaimed films including Serpico and Dog Day Afternoon. His career hit the skids, however, in 1985 with Revolution largely considered one of the worst films ever made. But he returned triumphant in 1989 with Sea Of Love opposite Ellen Barkin.

That same year he made his directorial debut with The Local Stigmatic, and while the film was never released, his follow-up, 1996's Looking For Richard, was a celebrated achievement. Career highlights from the Nineties include the mob thriller Donnie Brasco and Michael Mann's Oscar-winning The Insider. Pacino is among Tinsel town's most famous bachelors. He has never been married, but has enjoyed several high-profile romances with Diane Keaton while filming The Godfather: Part III and actress Penelope Ann Miller. A brief dalliance with acting coach Jan Tarrant in the late Eighties resulted in the birth of a daughter, Julie. "I've never been married, but I like it that way," says the Any Given Sunday star.

"I might get married one day. I was close once in my life, but it didn't happen; one day I'm sure it will." He may be speaking of his current companion, the actress Beverly D'Angelo, with whom he has twins, Anton and Olivia. These days Pacino seems to have settled down somewhat. He stopped drinking in the late Seventies and kicked a two-pack-a-day cigarette habit in 1994. He's grown accustomed to being photographed with his children and, having passed the age of 60 with his career still thriving, the 5ft 6in actor seems content. "It does look to me like I'm a little more accepting of things," he said. "Pretty soon you just count whatever blessings you've got. I've found that happiness is cool.

















# DOSTUN ÜÇÜN YARIŞ

Məktəbdə III siniflər arasında “DOSTUN ÜÇÜN YARIŞ” şüarı altında şən estafet oyunları keçirildi. Yarışın keçirilməsində məqsəd və vəzifə şagirdlərin il ərzində mənimsədiyi bacarıq və vərdişlərini icra etmək və hərəki qabiliyyətlərini nümayiş etdirmək idi. Hər bir yarış oyunu 4 mərhələdən ibarətdir. Şagirdlərdən hərəkətin reaksiya tezliyi, sürətli olmaq, çeviklik, diqqət və koordinasiya , qüvvə qabiliyyəti, elastiklik, dözümlülük və s. kimi fiziki keyfiyyətlərinin nümayişi tələb olunmuşdur.









Yarışın başlıca vəzifəsi adından göründüyü kimi "DOSTUN ÜÇÜN YARIŞ" şüarı altında keçirilən yarışlarda şagirdlərdə şəxsiyyətin mənəvi-iradi keyfiyyətlərinin formalaşması mühüm yer tutur. Yarış zamanı müşahidə olundu ki, ümumi mənafe naminə həmrəylik nümayiş etdirən, komandalı fəaliyyət zamanı əməkdaşlığa can atan, komanda yoldaşı ilə səmərəli həmkarlıq edən, rəqiblə qaydalar çərçivəsində davranan komandalar uğurlu nəticələr göstərmişdir.

*Səbuhi Məcidov*
*Fiziki tərbiyə müəllimi*




# LALƏ MƏDƏTOVA

Məktəbimizdə bütün fənlər kimi Biologiyaya olan maraq da güclüdür.
Bu baxımdan XI sinif şagirdi Lalə Mədətova Respublika Fənn Olimpiadasında Biologiya fənni üzrə məktəbi uğurla təmsil edərək II yer tutmuş, gümüş medala layiq görülmüşdür.
İstedadlı şagirdimizi təbrik edir, ona sevdiyi Biologiya fənni üzrə təhsilində yeni-yeni uğurlar arzulayırıq.

# BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞIN SAYTI




bagca.dunyaschool.az


DÜNYA

# BALAZOOYA SƏYAHƏT

Balazoo – balacalarımız heyvanlar aləmi ilə yaxından tanış olaraq onlarla düzgün davranmağı öyrənirlər. Heyvanlara nəvazişlə yanaşmağı, onları sevməyi aşılayan bu kiçik heyvanlar aləmi bütün uşaqların sevimli məkanıdır.

Balacalarımız da BalaZoo – da heyvanlarla yaxından təmasda oldular. Heyvanlara sığal çəkən, qayğı bəsləyən, onların qidalanmasına xüsusi diqqət göstərən uşaqlar sonda öz işlərinin nəticəsindən razı qaldılar. Axı, yaxşılıq edən insan həm də özü bundan zövq alır...









# SUCCESSFUL TRANSITION FROM KINDERGARTEN TO SCHOOL





Children go through many transitions throughout their lives, but one of the most important transitions is the one from a kindergarten to a school. During this period behavior is shaped and attitudes are formed that will influence children throughout their education. Primary teachers are most often concerned about children's skills in following directions, academics and working independently.



There seems to be a discrepancy between the expectations of the teachers and the actual skills of kindergarteners. Therefore, a need for kindergarten teachers to collaborate with primary teachers exists.

Towards the end of the school year, kindergarteners at Dunya school usually visit primary school. We believe this helps the students adjust to school more easily. Children feel more secure and motivated in their new environment when they get this support from the school. They understand what school is really like. The teachers arrange for them to see more than one type of classroom activity.





This gives the students an opportunity to compare and contrast their own learning environment in kindergarten to that of school.
It is important to treat the children's entrance into the school as a normal occurrence, as well as grow confidence in them.






# WELCOME TO SCHOOL, DEAR KINDERGARTENERS!

# Я учу русский



Целесообразность обучения русскому языку с дошкольного возраста обусловлена тем, что этот период развития ребенка характеризуется интенсивным формированием познавательных процессов, более быстрым и легким, чем на последующих ступенях, усвоением умений и навыков. Работу с детьми следует начинать, когда их речь на родном языке практически сформирована, к пяти – шести годам. Поэтому обучение проводится в старшей и подготовительной группах.







Занятия проводятся воспитателями, хорошо владеющими русским языком и методикой обучения, или учителями русского языка.

**Задачи обучения в области воспитания и общего развития детей:**

Воспитывать у детей на занятиях по русскому языку патриотические и интернациональные чувства.

Познакомить детей с природой и жизнью людей в различных частях нашей страны, используя для этого фотографии, картины, телепередачи.

Расширять кругозор детей, знакомить их на занятиях русским языком с новыми понятиями и явлениями по мере изучения новых слов.

Формировать у детей устойчивый интерес и положительное отношение к изучению русского языка, желание учиться.

Развивать познавательные и языковые способности детей, их память, внимание, воображение, речевую реакцию, наблюдательность относительно языковых явлений, навыки речевого самоконтроля.Формировать предпосылки учебной деятельности: речевую и познавательную активность, умение слушать объяснения педагога и речь товарищей, принимать решение в несложной проблемной ситуации.

Важнейшую роль в овладении языком играет память. Усвоить язык – значит прежде всего запомнить множество слов, уметь быстро извлечь из памяти нужное слово. От того, как будет организован процесс запоминания детьми новых русских слов, зависит формирование лексических навыков речи. Память ребенка дошкольного возраста в своей преобладающей части, так же как и внимание, носит еще непроизвольный характер. Однако ее объем и возможности чрезвычайно велики, что значительно облегчает детям изучение второго языка. Психологи указывают, что непроизвольное запоминание, совершающееся в активной деятельности детей, более продуктивно, чем произвольное.











Я ЗНАЮ РУССКИЙ

www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ
2017-2018

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2017-2018-Cİ TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU BAŞLANDI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə biliklə yanaşı, tərbiyəyə, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-X
İNGILIS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Onlayn müraciətlə,
zəng etməklə
və ya
məktəbə gəlməklə
qeydiyyatdan keçə bilərsiniz

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün Pre IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir.
Gündəlik dərs proqramından əlavə, şahmat, kompüter, psixologiya, rəsm,texnologiya,musiqi,rəqs dram, və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarlq və vərdişlər formalaşır.
Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK!
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB! BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF ETMƏYƏ TƏLƏSİN!


Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt.Bakı küçəsi, 44-cü məhəllə
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33